PARADIGMA, No.1, 2026, səh.73-78
https://doi.org/10.30546/30015.2026.01.01.2051

# FASİLİTATOR TARİX MÜƏLLİMİ ANLAYIŞININ MAHİYYƏTİ

**Ü.E. Səfərli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
e-mail: ulker.seferli.2003@gmail.com

**Xülasə.** Fasilitator tarix müəllimi anlayışı müasir təhsil yanaşmalarında müəllimin rolunun dəyişməsini ifadə edir. Bu modeldə müəllim əsas məlumat ötürücüsü deyil, şagirdlərin öyrənmə prosesini istiqamətləndirən, onların fəal iştirakını, tənqidi və tarixi düşüncəsini inkişaf etdirən təşkilatçı və bələdçi kimi çıxış edir. Fasilitator tarix müəllimi dərs prosesində problemli suallar, müzakirələr, mənbə təhlili, qrup işi və layihə əsaslı tapşırıqlardan istifadə etməklə şagirdlərin tarixi hadisələri səbəb–nəticə əlaqələri əsasında dərk etməsinə şərait yaradır.
Məqalədə fasilitator tarix müəllimi anlayışının mahiyyəti və müasir təhsil sistemində rolu kompleks şəkildə araşdırılmışdır. Tədqiqat çərçivəsində ənənəvi tarix müəllimi modeli ilə fasilitator müəllim modeli arasında əsas fərqlər təhlil edilmiş, müəllimin funksional rolunun bilik ötürücüsündən öyrənmə prosesinin təşkilatçısına keçidi əsaslandırılmışdır.

**Açar sözlər**: Tarix, interaktiv, fasilitator, öyrənmə, inteqrasiya.

## Giriş

Müasir dövrdə təhsil sistemində baş verən köklü islahatlar, informasiya texnologiyalarının inkişafı və qloballaşma prosesi müəllim şəxsiyyətinə, xüsusilə də tarix müəlliminin fəaliyyətinə yeni tələblər formalaşdırmışdır. Ulu Öndər Heydər Əliyev müəllimlik peşəsinin cəmiyyət üçün strateji əhəmiyyətini dərinliklə dəyərləndirərək qeyd etmişdir: *“Müəllimin vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətəndaşlar hazırlayır. Gələcək bilikli, elmli insanların çiyinləri üzərində qurulacaqdır.”* Bu fikirlər müəllimlik sənətinin mahiyyətini və onun cəmiyyətin intellektual inkişafında oynadığı əvəzsiz rolu aydın şəkildə ifadə edir. Müəllimlik yalnız bir peşə deyil, həm də mənəvi məsuliyyət, milli şüurun formalaşdırılması və vətəndaşlıq dəyərlərinin ötürülməsi missiyasını özündə birləşdirən ali bir çağırışdır.

Müəllim peşəsi insan fəaliyyətinin ən məsuliyyətli formalarından biridir. Çünki o, insan şəxsiyyətinin formalaşmasında, onun dünyagörüşünün, dəyərlər sisteminin və həyat mövqeyinin müəyyənləşməsində həlledici rol oynayır. Təhsil sisteminin mərkəzində duran əsas fiqur da məhz müəllimdir – o, cəmiyyətin gələcəyinə yön verən və insan kapitalının formalaşmasına təsir edən aparıcı qüvvədir. Bu baxımdan, müəllimlik fəaliyyətinin mahiyyəti təkcə bilik verməklə məhdudlaşmır; o, həm də tərbiyə, şəxsiyyət inkişafı və mənəvi kamillik prosesinin ayrılmaz hissəsidir.

Tarixən müəllimə olan hörmət və etimad, onun cəmiyyətdəki statusunun yüksək olmasını təmin etmişdir. Müəllimlər cəmiyyətin intellektual elitasını təşkil etmiş, elm və mədəniyyətin inkişafına təkan verən ziyalılar kimi tanınmışlar. Onların fəaliyyəti sadəcə məktəblə və auditoriya ilə məhdudlaşmır, əksinə, ictimai rəyin formalaşmasına, milli ideologiyanın möhkəmlənməsinə və gənc nəslin mənəvi tərbiyəsinə istiqamətlənir [2, s.57].

Bu gün də müəllimlər cəmiyyətin mənəvi dayağı kimi dəyərləndirilir. Hər bir şagird və tələbə həyatında müəllimin rolu unikal və dərin iz buraxır. Onların verdiyi bilik, göstərdiyi diqqət və səbirli yanaşma təkcə akademik deyil, insani və etik davranış modellərinin formalaşmasına da təsir edir. Müəllimlər öz davranışları ilə gənclərə nümunə olur, onlarda əməyə, elmə və vətənə sevgi hisslərini gücləndirirlər.

**Tarix müəlliminin fasilitator kimi pedaqoji rolu**

Ənənəvi tədris modelində müəllim əsas informasiya daşıyıcısı və bilik ötürücüsü kimi çıxış etdiyi halda, fasilitator modelində onun fəaliyyəti təlim prosesinin təşkilinə, idarə olunmasına və istiqamətləndirilməsinə yönəlir. Bu yanaşma konstruktivist təlim nəzəriyyəsinə əsaslanaraq biliklərin hazır formada təqdim edilməsini deyil, şagirdlərin əvvəlki təcrübə və biliklərinə söykənməklə yeni bilikləri fəal şəkildə formalaşdırmasını ön plana çəkir.

Fasilitator rolunda tarix müəllimi şagirdlərin tarixi bilikləri müstəqil şəkildə kəşf etməsi, dərk etməsi və məzmun baxımından mənalandırması üçün məqsədyönlü pedaqoji mühit yaradır. Müəllim təlim prosesində problemli situasiyalar qurur, istiqamətləndirici suallar təqdim edir, tarixi mənbələrin təhlilinə əsaslanan tapşırıqlardan istifadə edir və şagirdlərin fərdi və qrup şəklində fəaliyyətini əlaqələndirir. Bu prosesdə müəllim birbaşa qiymətləndirici və hökmverici mövqedən çıxış etmir, əksinə, şagirdlərin idraki fəaliyyətini stimullaşdıran və onların müstəqil nəticələrə gəlməsinə şərait yaradan pedaqoji rəhbər funksiyasını yerinə yetirir [1,s.39].

Tarix müəlliminin fasilitator kimi fəaliyyəti təlim prosesində subyekt–obyekt münasibətlərini subyekt–subyekt münasibətləri ilə əvəz edir, şagirdlərin təlimə fəal cəlb olunmasını təmin edir və tarix fənninin yalnız informativ deyil, eyni zamanda inkişafetdirici və tərbiyəvi potensialının reallaşdırılmasına imkan yaradır.

Fasilitator rolunda tarix müəllimi dərs prosesini şagirdyönümlü prinsiplər əsasında planlaşdırır və təşkil edir, təlimin mərkəzində şagirdin idraki fəaliyyəti dayanır. Müəllim öyrənməni aktivləşdirən metod və üsullardan – problemli təlim, mənbə əsaslı öyrənmə, debat, diskussiya, "beyin həmləsi", qrup və cüt işindən sistemli şəkildə istifadə edir. Bu metodlar vasitəsilə şagirdlər tarixi hadisələri yalnız faktoloji ardıcıllıqda deyil, sosial-siyasi və mədəni kontekst daxilində təhlil etməyə yönəldilir. Nəticədə şagirdlər hadisələrin səbəb–nəticə

əlaqələrini müəyyənləşdirməyi, tarixi proseslərin inkişaf məntiqini anlamağı və müxtəlif mövqeləri müqayisə edərək əsaslandırılmış nəticələr çıxarmağı öyrənirlər. Bu yanaşma şagirdlərin tənqidi və analitik təfəkkürünün, eləcə də tarixi düşüncə bacarıqlarının formalaşmasına bilavasitə xidmət edir.

"XIX əsrdə Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğalı" mövzusunun tədrisini qeyd etmək olar. Fasilitator müəllim dərsin əvvəlində şagirdlərə problemli sual ünvanlayır: "Bu işğal prosesi yalnız hərbi üstünlük nəticəsimi idi, yoxsa daxili siyasi və sosial amillər də rol oynamışdı?" Daha sonra şagirdlər qruplara bölünərək müxtəlif tarixi mənbələrlə, müqavilə mətnləri, xronoloji cədvəllər və tarixçilərin mövqeləri ilə işləyirlər. Qrup müzakirələri zamanı hər bir qrup öz mövqeyini əsaslandırır, debat mərhələsində isə fərqli baxışlar müqayisə olunur. Müəllim bu prosesdə hazır cavab təqdim etmir, yalnız istiqamətləndirici suallarla şagirdlərin düşünmə fəaliyyətini dərinləşdirir. Bu halda şagirdlərdə tənqidi düşüncə bacarıqları da formalaşmış olur.

Tarix müəllimi fasilitator kimi dərsdə demokratik və psixoloji baxımdan təhlükəsiz öyrənmə mühiti formalaşdırır. Şagirdlərin fərdi fikirlərinə hörmətlə yanaşılır, onların sərbəst şəkildə mövqe bildirməsinə şərait yaradılır və fərqli yanaşmaların mövcudluğu təbii və dəyərli hal kimi qəbul edilir. Yanlış və ya natamam cavablar cəza və ya mənfi qiymətləndirmə obyekti deyil, öyrənmə və inkişaf üçün imkan kimi dəyərləndirilir. Bu mühit şagirdlərdə özünəinamın möhkəmlənməsinə, tənqidi mövqedən çıxış etmək bacarığının inkişafına, həmçinin ünsiyyət və əməkdaşlıq mədəniyyətinin formalaşmasına müsbət təsir göstərir.

Fasilitator tarix müəllimi tərəfindən təşkil olunan dərs şagirdləri passiv dinləyici mövqeyindən çıxararaq onları təlim prosesinin fəal subyektinə çevirir, tarix fənninin həm idraki, həm də tərbiyəvi potensialının tam reallaşdırılmasına imkan yaradır.

**Fasilitator tarix müəlliminin funksiyaları**

Fasilitator tarix müəllimi müasir tədris prosesində şagirdyönümlü yanaşmanı təmin edən əsas subyekt kimi çıxış edir və bir sıra mühüm funksiyaları yerinə yetirir:

Öyrənmə prosesinin təşkili funksiyası – Tarix dərsinin məqsəd və məzmununa uyğun olaraq fəaliyyətləri planlaşdırır, dərsin strukturunu qurur və şagirdlərin fəal iştirakına şərait yaradır.

Motivasiyaedici funksiya – Tarixi mövzulara maraq oyadan problemli suallar, real tarixi situasiyalar və müzakirələr vasitəsilə şagirdlərin öyrənməyə daxili motivasiyasını gücləndirir.

Bələdçilik (istiqamətləndirmə) funksiyası – Şagirdlərə hazır cavablar vermədən onları düzgün mənbələrə yönəldir, araşdırma və nəticə çıxarma prosesində yol göstərir.

Tənqidi və tarixi düşüncənin formalaşdırılması funksiyası – Tarixi hadisələrin səbəb–nəticə əlaqələrinin, müxtəlif baxış bucaqlarının və mənbələrin müqayisəli təhlilini təşviq edir.

Əməkdaşlıq və ünsiyyətin təşkili funksiyası – Qrup işləri və müzakirələr vasitəsilə şagirdlər arasında əməkdaşlıq, qarşılıqlı hörmət və tolerant münasibətlərin inkişafına şərait yaradır.

Qiymətləndirmə və geribildirim funksiyası – Formativ qiymətləndirmə üsullarından istifadə edərək şagirdlərin irəliləyişini izləyir, konstruktiv rəy verir və özünüqiymətləndirməni təşviq edir.

Şəxsiyyətin inkişafına dəstək funksiyası – Şagirdlərin vətəndaş mövqeyinin, məsuliyyət hissinin və tarixi şüurunun formalaşmasına yönəlmiş pedaqoji mühit yaradır.

Bu funksiyaların reallaşdırılması fasilitator tarix müəlliminin dərslərdə təlimin keyfiyyətini yüksəltməsinə və şagirdlərin aktiv, düşünən və məsuliyyətli fərdlər kimi formalaşmasına imkan verir.

Amerikalı alim Lee Shulmanın müəyyən etdiyi təsnifata əsasən "müasir tarix müəllimi" anlayışını təşkil edən əsas komponentlər aşağıdakılardır:

1. Peşəkar-tarixi biliklər və metodik bacarıqlar

Müasir müəllim tarixi faktları, qanunauyğunluqları və yanaşmaları dərindən bilməli, eyni zamanda fərqli mənbələrin necə istifadə edildiyini, tarixi analiz yollarını bilməlidir. O, tarixi mənbə ilə işləmə qabiliyyətinə malik olmalıdır;

2. Təhsil və texnologiya bilikləri

Müasir təhsil şəraitində müəllimin fəaliyyəti ənənəvi auditoriya çərçivəsi ilə məhdudlaşmır və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə bacarığını tələb edir. Müasir müəllim elektron tədris resurslarından, interaktiv təlim platformalarından və distant təhsil imkanlarından məqsədyönlü şəkildə istifadə etməyi bacarmalıdır. Bu texnologiyalar dərs prosesinin strukturlaşdırılmasına, tədris materiallarının vizuallaşdırılmasına və öyrənmə fəaliyyətinin fərdiləşdirilməsinə imkan yaradır.

Müasir texnologiyaların və məlumat-kommunikasiya vasitələrinin tədris prosesinə inteqrasiyası dərslərin planlaşdırılması və həyata keçirilməsində metodiki çevikliyi artırır, şagirdlərin idraki fəallığını və təlim motivasiyasını yüksəldir. Bu baxımdan müasir tarix müəllimi tarix dərslərinin planlaşdırılmasında, o cümlədən distant təlimin mahiyyəti, məqsədləri və metodikasının elmi əsaslarla təhlilinə xüsusi diqqət yetirməli, texnologiyaların pedaqoji imkanlarını təlim məqsədlərinə uyğun şəkildə tətbiq etməlidir.

3. Metod və yanaşma zənginliyi

Ənənəvi auditoriya leksiyası ilə yanaşı, interaktiv dərs metodları, problemli suallar, diskussiya, layihə işi, simulyasiya, qrupla iş və fənlərarası əlaqələr istifadə edilməlidir. Müasir müəllim şagirdləri təkcə dinləyici yox, aktiv iştirakçı olmağa təşviq etməlidir;

4. Tənqidi və yaradıcı düşüncənin formalaşdırılması

Tarixi informasiyanı təqdim edərkən sadəcə "belə olub" deyil, "niyə belə olub?", "başqa mümkün ssenarilər olsaydı nə olardı?" kimi suallar şagirddə tarixi düşüncə qabiliyyəti formalaşdırmalıdır. Müasir müəllim üçün bu, ən əsas rolardan biridir;

5. Tarixi şüur və vətənpərvərlik tərbiyəsi

Tarix müəllimi həm beynəlxalq dünyagörüşü formalaşdırmalı, həm də millətinə, dövlətinə bağlılıq duyğusunu gücləndirməlidir. O, tarixi hadisələri şagirdlərə təqdim edərkən milli xüsusiyyətləri, milli kimliyi diqqətlə nəzərə almalıdır;

6. Davamlı özünüinkişaf və yenilənmə

Müasir müəllim dəyişən təhsil tələblərinə adaptasiya olmalı, yeni metodlar, yeniliklər öyrənməli və tətbiq etməlidir. Bu, peşənin yalnız başlanğıcı deyil, həyat boyu davam edən prosesdir. (Müəllimlər dünyanın sürətlə dəyişdiyini anlamalı və adaptasiya olmalıdırlar [2, s.6].

Müasir tarix müəllimi anlayışının mahiyyəti onun elmi, pedaqoji, metodoloji və sosial kompetensiyaların vəhdətində cəmlənir. O, tarix elmini müasir pedaqoji texnologiyalarla birləşdirən, tənqidi düşüncə və vətəndaşlıq mədəniyyətini formalaşdıran müasir təhsil subyekti kimi dəyərləndirilir. Belə müəllim modeli XXI əsrin təhsil sistemində tədrisin keyfiyyətinin və şagirdlərin dünyagörüşünün formalaşmasının əsas təminatçısıdır.

**Nəticə**

"Fasilitator tarix müəllimi" anlayışı müasir təhsil paradiqmasının əsas prinsiplərinə uyğun olaraq tarix tədrisinin məzmun və metodikasında keyfiyyət dəyişikliklərini xarakterizə edir. Bu modeldə müəllim yalnız biliklərin ötürülməsini həyata keçirən subyekt kimi deyil, öyrənmə prosesini planlaşdıran və istiqamətləndirən, şagirdlərin təlim fəaliyyətində fəallığını təmin edən pedaqoji rəhbər kimi çıxış edir. Fasilitator tarix müəllimi şagirdlərdə müstəqil düşünmə, analitik yanaşma və tarixi təhlil bacarıqlarının formalaşdırılmasına məqsədyönlü şəkildə şərait yaradır.

Bu yanaşma çərçivəsində şagirdlər passiv bilik qəbul edən mövqedən çıxarılaraq tarixi mənbələrlə işləməyə, faktların müqayisəli təhlilini aparmağa, səbəb–nəticə əlaqələrini müəyyənləşdirməyə və tarixi hadisələrə çoxaspektli yanaşma sərgiləməyə cəlb olunurlar. Nəticədə tarix dərsi informativ xarakterli təlimdən çıxaraq idraki fəaliyyətə əsaslanan, müzakirə və qərarvermə elementlərini özündə birləşdirən təlim mühitinə çevrilir.

Beləliklə, fasilitator modelinə əsaslanan tarix müəllimi milli və qlobal tarixi şüurun formalaşdırılmasına, tənqidi düşünmə bacarıqlarının inkişafına və şagirdlərdə məsuliyyətli vətəndaş mövqeyinin təşəkkül tapmasına əhəmiyyətli töhfə verir. Bu müəllim modeli müasir təhsilin strateji məqsədlərinə uyğun olaraq şəxsiyyətyönümlü, səriştəyönümlü və fəal təlimin həyata keçirilməsində mühüm pedaqoji mexanizm kimi qiymətləndirilir.

**Ədəbiyyat siyahısı**

1. Abbasov A.N., (2007), Pedaqogika (müxtəsər konspekt və sxemlər), Bakı, Mütərcim, 80
2. Вяземский Е. Е., (2016), Тенденции развития общего исторического образования и подготовка учителя для современной российской школы, Преподавание истории в школе, 2, 3–10.
3. Шоган В. В., & Сторожакова Е. В., (2024), Методика преподавания истории в школе (2-е изд., перераб. и доп.), Юрайт, 124
4. Nəzərov A.M. (2012), Müasir təlim texnologiyaları, Bakı, ADPU nəşriyyatı, 103

## THE ESSENCE OF THE CONCEPT OF FASILITATOR HISTORY TEACHER

**U.E. Safarli**
Azerbaijan State Pedagogical University, Baku, Azerbaijan

**Abstract.** The concept of a facilitator history teacher expresses the change in the role of the teacher in modern educational approaches. In this model, the teacher is not the main transmitter of information, but acts as an organizer and guide who guides the learning process of students, develops their active participation, critical and historical thinking. The facilitator history teacher creates conditions for students to understand historical events based on cause-and-effect relationships by using problem questions, discussions, source analysis, group work and project-based tasks in the teaching process.

The article comprehensively examines the essence of the concept of a facilitator history teacher and its role in the modern education system. Within the framework of the study, the main differences between the traditional history teacher model and the facilitator teacher model are analyzed, and the transition of the teacher's functional role from a transmitter of knowledge to an organizer of the learning process is justified.

**Keywords**: History, interactive, facilitator, learning, integration.